**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS XXX**

İlkin nəşr
2024

# Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi. Ümumi tələblər

# Evaluation and monitoring of services provided to young people in need of social protection. General requirements

Layihə

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS XXX:2024

©AZSTAND 2024

Layihə

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜQƏDDİMƏ

**1.** Bu standart “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ tərəfindən işlənib hazırlanıb və təqdim edilib.

**2.** “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ-nin “____” _______2024-cü il tarixli ______________saylı Qərarı ilə təsdiq edilmişdir.

**3.** Qüvvəyə minmə tarixi “ ____ ”  _____________2024-cü il.

**4.** İlk dəfə tətbiq edilir.

**5.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2025-ci il, dövri yoxlama müddəti 1 ildir.

.

Layihə

©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜNDƏRİCAT

**1 Tətbiq sahəsi ... 1**
**2 Normativ istinadlar ... 1**
**3 Termin və təriflər ... 2**
**4 Sosial xidmət və reabilitasiya müəssisələrinə yerləşdirilmə qaydaları ... 3**
**5 Yarımstasionar (günərzi) sosial xidmətlərin göstərilməsi ... 9**
5.1 Sosial-psixoloji xidmətlər ... 9
5.2 Sosial-pedaqoji xidmətlər ... 11
5.3 Tibbi-sosial xidmətlər ... 12
5.4 Sosial-hüquqi xidmətlər ... 12
5.5 Sosial-iqtisadi xidmətlər ... 13
5.6 Sosial-məişət xidmətləri ... 13
**6 Stasionar sosial xidmət ... 13**
6.1 Sosial-psixoloji xidmətlər ... 13
6.2 Sosial-pedaqoji xidmətlər ... 13
6.3 Tibbi-sosial xidmətlər ... 14
6.4 Sosial-hüquqi xidmətlər ... 14
6.5 Sosial-iqtisadi xidmətlər ... 15
6.6 Sosial-məişət xidmətləri ... 15
**7 Qida normaları ... 15**
**8 Fərdi reabilitasiya ... 16**
8.1 Tibbi reabilitasiya üzrə tədbirlər ... 16
8.2 Sosial bacarıqların inkişafı üzrə tədbirlər ... 17
8.3 Fiziki reabilitasiya üzrə tədbirlər ... 17
**9 Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin monitorinqi ... 18**
**Biblioqrafiya ... 20**

Layihə


©AZSTAND –Bütün hüquqlar qorunur

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi. Ümumi tələblər**

**AZS XXX:2024**

**Evaluation and monitoring of services provided to young people in need of social protection. General requirements**

Qüvvəyə minmə tarixi “____” _______2024-cü il

## 1 Tətbiq sahəsi

Bu sənəd sosial müdafiəyə ehtiyacı olan gənclərə sosial xidmət və reabilitasiya müəssisələrində göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi üçün tələb və tövsiyələri müəyyən edir.

Bu sənəddə fərdi reabilitasiya tədbirləri, ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində vətəndaşların qida normaları göstərilmişdir.

Bu sənəd həm sosial xidmət göstərən müəssisələrə, həm də reabilitasiya müəssisələrinə şamil edilir.

Layihə

## 2 Normativ istinadlar

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 149 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti qaydası

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli qərarı ilə təsdiq edilmiş "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası”

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar, əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları"

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının 2009-cu il 27 avqust tarixli 147 nömrəli Qanunu

©AZSTAND –Bütün hüquqlar qorunur

## 3 Termin və təriflər

Bu sənədin məqsədləri üçün aşağıdakı terminlər və təriflər tətbiq edilir.

**3.1 ahıllıq**
70 yaşdan sonrakı dövr

**3.2 çətin həyat şəraiti**
şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hal

**3.3 əlillik**
müxtəlif maneələrlə qarşılaşdığı zaman şəxsin digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının olması

**3.4 fiziki reabilitasiya**
sağlamlığın pozulmasına səbəb olan məhdud həyat fəaliyyətinin aradan qaldırılmasına və ya maksimal dərəcədə tam kompensasiyasına yönəlmiş adaptiv bədən tərbiyəsi və adaptiv idman vasitə və metodlarından istifadə etməklə insan orqanizminin pozulmuş və ya müvəqqəti itirilmiş funksiyalarının və əlilliyi olan şəxslərin ictimai və peşəkar fəaliyyətdə iştirak qabiliyyətlərinin bərpası

**3.5 gənclə**r
yaşı 14-dən 29-dək olan şəxslər

**3.6 palliativ xidmətlər**
müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmiş xidmətlər

**3.7 sosial-hüquqi xidmətlər**
hüquqi yardım göstərilməsi, şəxslərin hüquqlarının qorunmasına yönəlmiş xidmətlər

**3.8 sosial xidmət**
çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər

**3.9 sosial xidmət müəssisələri**
mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyəti həyata keçirən hüquqi şəxslər

**3.10 sosial-iqtisadi xidmətlər**
şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmiş xidmətlər

**3.11 sosial-pedaqoji xidmətlər**

Layihə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailədə tərbiyəsinə dəstəyə yönəlmiş xidmətlər

**3.12 sosial-psixoloji xidmətlər**
şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji yardımı nəzərdə tutur

**3.13 sosial-iqtisadi xidmətlər**
şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmiş xidmətlər

**3.14 sosial məhrumiyyət (deprivasiya)**
şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olması

**3.15 sosial-məişət xidmətləri**
şəxslərin (ailələrin) məişət şəraitinin, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş xidmətlər

**3.16 sosial müdafiə**
insanın fəaliyyətinə minimum təminatı təmin edilməsi üçün cəmiyyət və onun müxtəlif strukturları tərəfindən həyata keçirilən tədbirlər sistemi

**3.17 sosial müdafiəyə ehtiyacı olan gənclər**
valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 18 yaşınadək olan, əlilliyi olan, iş yeri və (və ya) qazancı olmayan və məcburi köçkün gənclər

**3.18 sosial yadırğama (dezadaptasiya)**
şəxsin (ailənin) sosial mühitə uyğunlaşma qabiliyyətinin itirilməsi

**3.19 stasionar sosial xidmət**
bu məqsədlə yaradılmış müəssisədə sosial xidmət göstərilən şəxslərin (ailələrin) fiziki durumuna və səhhətinə uyğun həyat şəraitinin yaradılmasından, tibbi və sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsindən, qulluğun təşkilindən ibarət xidmət

**3.20 yetkinlik yaşı**
qanunla şəxsin tam fəaliyyət qabiliyyətli hesab olunduğu yaş (Azərbaycan Respublikasında yetkinlik yaşı 18 yaşdır)

Layihə

## 4 Sosial xidmət və reabilitasiya müəssisələrinə yerləşdirilmə qaydaları

### 4.1 Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üzrə

4.1.1 Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi üçün onların valideynlərindən biri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər yerli icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
4.1.1.1 uşağın şəxsiyyətini təsdiq edən sənəd;
4.1.1.2 valideynin (qəyyumun, himayəçinin) şəxsiyyətini təsdiq edən sənədin surəti

©AZSTAND –Bütün hüquqlar qorunur

*Qeyd - Nikahdankənar doğulduğu təqdirdə - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbəsindən müvafiq arayış*

4.1.1.3 valideyn (valideynlər) vəfat etmişdirsə, ölüm haqqında şəhadətnaməsi və yaxud bu barədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinin arayışı;
4.1.1.4 uşağın yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;
4.1.1.5 valideynin (valideynlərin) daşınmaz əmlakına mülkiyyət hüququnu təsdiq edən sənədin surəti.
4.1.2 Uşağın valideyn himayəsindən məhrum olması səbəblərindən asılı olaraq, aşağıdakı sənədlər ərizəyə əlavə olunur:
4.1.2.1 valideynlər boşanmışdırsa - nikahın pozulması haqqında şəhadətnamənin surəti və valideynin razılığı;
4.1.2.2. valideynlərdən birinin və ya hər ikisinin həbsdə olduğu təqdirdə məhkəmənin müvafiq qətnaməsi;
4.1.2.3 valideynin (valideynlərin) əlilliyi varsa, bunu təsdiq edən Tibbi Sosial Ekspert Komissiyasının (TSEK) qərarı.

*Qeyd - Müraciətə daxil olduqdan 10 (on) iş günü müddətində uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.*

**4.2 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üzrə**

4.2.1 Təhsilə cəlb olunmayan 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üzrə
4.2.1.1 Əlilliyi müəyyən edilmiş 5 yaşından 18 yaşınadək təhsilə cəlb olunmayan uşaqların (daha sonra - uşaqlar) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi üçün valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
4.2.1.1.1 uşağın şəxsiyyətini təsdiq edən sənəd;
4.2.1.1.2 uşağın əlilliyini müəyyən edən TSEK-in qərarı;
4.2.1.1.3 yoluxucu xəstəliklərin daşıyıcısı olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış;
4.2.1.1.4 uşağın yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;
4.2.1.1.5 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

*Qeydlər:*
*1. Sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə ərizə daxil olduğu gündən 5 (beş) iş günü müddətində uşaqların sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində uşaqların sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi tərəfindən qiymətləndirilir və hesabat hazırlanaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə göndərilir.*

Layihə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

*2. Hesabata təqdim olunmuş sənədlərlə birlikdə baxılaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən uşaqların sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.*

4.2.2 Təhsilə cəlb olunan 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üzrə

4.2.2.1 Əlilliyi müəyyən edilmiş 5 yaşından 18 yaşınadək təhsilə cəlb olunan uşaqların dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi üçün valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər yaşadığı ərazi üzrə rayon (şəhər) Psixoloji-tibbi-pedaqoji komissiyaya (daha sonra - komissiya) ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

4.2.2.1.1 uşağın şəxsiyyətini təsdiq edən sənəd;

4.2.2.1.2 yoluxucu xəstəliklərin daşıyıcısı olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış;

4.2.2.1.3 uşağın yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;

4.2.2.1.4 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

*Qeydlər:*

*1. Komissiyada sosial xidmət müəssisəsinə yerləşdirilmə barədə ərizəyə daxil olduğu gündən 5 (beş) iş günü müddətində baxılır.*

*2. Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində uşaqların psixoloji-tibbi-pedaqoji müayinəsi aparılır, inkişaf xüsusiyyətləri aşkarlanmaqla diaqnozu müəyyənləşdirilir və uşaqların xüsusi təhsilə olan tələbatı qiymətləndirilərək komissiyanın qərarı və ərizəyə əlavə olunmuş sənədlər xüsusi təhsil müəssisəsinə göndərilir.*

**4.3 Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üzrə**

4.3.1 Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların (daha sonra - yetkinlik yaşına çatmayanlar) dövlət sosial xidmət müəssisələrinə (sosial sığınacaq) yerləşdirilməsinə aşağıda qeyd olunan sənədlər əsasında baxılır:

4.3.1.1 yetkinlik yaşına çatmayanın yazılı və ya şifahi müraciəti;

4.3.1.2 yetkinlik yaşına çatmayanın arzusunun nəzərə alınması onun mənafeyinə zidd olduğu hallar istisna olmaqla, 10 yaşına çatmış yetkinlik yaşına çatmayanın arzusu nəzərə alınmaqla, onun valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslərin müraciətləri;

4.3.1.3 Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın müraciəti;

4.3.1.4 sosial reabilitasiyaya ehtiyacı olan yetkinlik yaşına çatmayanların onlar üçün nəzərdə tutulmuş ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisəsinə yerləşdirilməsi haqqında şəhər, rayon polis orqanının qərarı.

4.3.2 Müraciət daxil olduqdan 3 (üç) iş günü ərzində, yetkinlik yaşına çatmayanın şəxsiyyətinin müəyyənləşdirilməsi, ailəsi və qohumları haqqında məlumatların təmin edilməsi məqsədi ilə daxili işlər orqanına, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Əhalinin Dövlət Reyestri Xidmətinə, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya və digər aidiyyəti qurumlara sorğu göndərilir, sağlamlıq vəziyyətinin yoxlanılması üçün ərazi üzrə dövlət tibb müəssisələrinə müraciət edilir.

*Qeyd - Sorğuda tələb olunan məlumatlar göstərilməklə, 5 (beş) iş günü müddətində həmin qurumlar tərəfindən sorğuya cavab verilir.*

Layihə

©AZSTAND –Bütün hüquqlar qorunur 

4.3.3 Sorğu göndərilən qurumlarda zəruri məlumatlar olmadıqda, uşağın yaşının və şəxsiyyətinin müəyyən olunması üçün məhkəməyə müraciət edilir.

*Qeyd – Müvafiq sənədlərə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılaraq, uşağın sosial sığınacağa daimi yerləşdirilməsi barədə qərar qəbul edilir.*

4.3.4 Hüquq pozuntusu törədən uşağı saxlayan polis orqanı, onun valideynlərini bu barədə məlumatlandırmaqla, yerli icra hakimiyyəti orqanına müraciət edir.

*Qeyd - Müraciətə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın iclasında baxıldıqdan sonra xüsusi pedaqoji yanaşma tələb olunan 8 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan (14 yaşınadək uşaqların valideynlərinin, 14 yaşından yuxarı olan yeniyetmələrin şəxsi razılığı tələb olunur), böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayan, daim qanunazidd davranışlı, təhsildən yayınan, valideynlərlə ünsiyyətdə çətinlik çəkən, valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə çətin tərbiyə olunan hesab edilmiş yetkinlik yaşına çatmayan, müxtəlif hüquqpozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayan uşaqların açıqtipli xüsusi təlim-tərbiyə müəssisələrinə yerləşdirilməsi ilə bağlı Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın iclasının protokolundan çıxarış yerli icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə rəsmiləşdirilir və uşağın şəxsiyyəti, sağlamlığı, təhsili və ailə vəziyyətinə dair sənədlərlə birlikdə 10 (on) gün müddətində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə göndərilir.*

Layihə

4.3.5 Sənədlərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən baxılaraq, hüquq pozuntusu törədən uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə 5 (beş) iş günü müddətində göndəriş qəbul edilir.

4.3.6 Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiya ağır və ya xüsusilə ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər və cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmış az ağır cinayət törədən 11 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayanlar barəsində onların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət qaldırır.

*Qeydlər:*

*1. Müəssisəyə yerləşdirilmə ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı uşağın şəxsiyyəti, sağlamlığı, təhsili və ailə vəziyyətinə dair sənədlərlə birlikdə yerli icra hakimiyyəti tərəfindən 10 (on) gün müddətində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə göndərilir.*

*2. Müəssisəyə yerləşdirilmə ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qərarına təqdim olunmuş sənədlərlə birlikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən baxılaraq, 5 (beş) gün müddətində hüquq pozuntusu törədən uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.*

**4.4 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üzrə**

 ©AZSTAND –Bütün hüquqlar qorunur

4.4.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) və ya onların qohumları, qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxslərin razılığı ilə digər şəxslər dövlət sosial xidmət müəssisələrinə yerləşdirilmələri üçün vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

*Qeyd - Burada həmçinin onlara qulluq göstərə biləcək yaxın qohumlarının - doğma və ögey qardaşlar, bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər və nəvələrinin olmaması barədə məlumat öz əksini tapmalıdır.*

4.4.1.1 şəxsiyyəti təsdiq edən sənəd;
4.4.1.2 yoluxucu xəstəliklərin daşıyıcısı olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, sağlamlıq haqqında tibbi arayış;
4.4.1.3 şəxsin əlilliyini təsdiq edən TSEK-in qərarı;
4.4.1.4 şəxsin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;
4.4.1.5 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.
4.4.2 Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş, özlərinin əsas həyati tələbatlarını müstəqil təmin edə bilməyən çətin həyat şəraitində olan şəxslərin sənədlərinə şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı və onlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə ərizələri əlavə olunur.

*Qeydlər:*
*1. Sosial xidmət müəssisəsinə yerləşdirilmə barədə ərizə daxil olduğu gündən 5 (beş) iş günü müddətində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində şəxsin sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi tərəfindən qiymətləndirilir və hesabat hazırlanaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə göndərilir.*
*2. Hesabata təqdim olunmuş sənədlərlə birlikdə baxılaraq, 5 (beş) iş günü müddətində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən şəxsin (ailənin) sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.*

**4.5 İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər üzrə**

4.5.1 İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər və ya onların qohumları, qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslər dövlət sosial xidmət müəssisələrinə yerləşdirilmələri üçün ərazi üzrə dövlət tibb müəssisələrinə ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

4.5.1.1 şəxsiyyəti təsdiq edən sənəd;
4.5.1.2 ambulator, stasionar xəstənin tibbi kartasından çıxarış;
4.5.1.3 şəxsin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;
4.5.1.4 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

Layihə

*Qeyd - Sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə müraciət ərizəsi daxil olduğu gündən 5 (beş) iş günü müddətində şəxsin sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi (həkim) tərəfindən qiymətləndirilərək, ərazi üzrə dövlət tibb müəssisəsi tərəfindən sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.*

**4.6 İnsan alveri qurbanları üzrə**

4.6.1 Uşaqların müdafiəsini təmin etmək məqsədi ilə onlar müvəqqəti yaşamaq üçün yaradılmış sığınacaqda yerləşdirilirlər.

4.6.2 Sığınacağın rəhbəri uşaq barədə təxirəsalınmaz tədbirlərin görülməsi məqsədi ilə sığınacağın yerləşdiyi ərazinin qəyyumluq və himayə orqanına, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə dərhal məlumat verir.

4.6.3 Şəxs sığınacağa qəbul edilərkən onun yaşını dəqiq müəyyən etmək mümkün olmadıqda, lakin həmin şəxsin 18 yaşına çatmadığı ehtimal edildikdə, o, uşaq hesab edilir.

4.6.4 Sığınacaqlarda uşaqlar bir qayda olaraq, ayrıca yerləşdirilirlər. Uşağın mənafeyi nəzərə alınaraq, o, valideynləri (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) və ya uşağın psixoloji durumuna müsbət təsir göstərən digər şəxslərlə birlikdə yerləşdirilə bilər.

**4.7 Məişət zorakılığından zərər çəkənlər üzrə**

4.7.1 Məişət zorakılığından zərər çəkən şəxslər, habelə həmin şəxsin razılığı ilə qohumları, qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları və ya digər şəxslər bu barədə yerli icra hakimiyyəti orqanlarına və ya şəhər, rayon polis orqanlarına müraciət etməlidirlər.

4.7.2 Məişət zorakılığından zərər çəkənlərə yardım mərkəzinin (daha sonra - yardım mərkəzi) sosial işçisi (psixoloqu) yerli icra hakimiyyəti orqanına və ya polis orqanına dəvət edilir, şəxslə söhbət nəticəsində onun məişət zorakılığına məruz qalması faktı təsdiqlənərək müvafiq akt tərtib edilir və şəxs yardım mərkəzinə müşayiət edilir.

4.7.3 Məişət zorakılığından zərər çəkən şəxslər yardım mərkəzlərinə birbaşa müraciət etdikdə yerli icra hakimiyyəti orqanının və ya şəhər, rayon polis orqanının əməkdaşı yardım mərkəzinə dəvət edilir.

*Qeydlər:*

*1. Yardım mərkəzində qısamüddətli (3 gün) ilkin reabilitasiya xidmətindən sonra müvafiq akt tərtib edilir və şəxsin istəyinə və sosial işçinin hazırladığı fərdi iş planına uyğun olaraq sığınacağa qəbul edilir.*

*2. Şəxsin sosial xidmət müəssisəsinə yerləşdirilməsindən imtina edildikdə, imtina barədə qərar 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edilir (göndərilir). Qərarda imtinanın səbəbləri göstərilməlidir. Ərizəyə əlavə olunan sənədlərin əsli ərizəçiyə qaytarılır.*

**4.8 Əlilliyi olan şəxslərin reabilitasiya müəssisəsinə qəbul edilməsi və reabilitasiya tədbirlərinin həyata keçirilməsi**

4.8.1 Fərdi proqram üzrə müəyyənləşdirilmiş tədbirlərin həyata keçirilməsi üçün Fərdi proqramdan çıxarış elektron qaydada, texniki səbəblərə görə bu mümkün olmadıqda isə kağız daşıyıcıda bu tədbirlərin icraçısı kimi müəyyənləşdirilmiş icraçılara göndərilir.

Layihə


©AZSTAND –Bütün hüquqlar qorunur

4.8.2 Əlilliyi olan şəxslərə Fərdi Reabilitasiya Proqramı əsasında göstərilən reabilitasiya xidmətlərinin uçotu Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (daha sonra – Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əlillik" (TSERAS) altsistemi vasitəsilə aparılır.

4.8.3 Müəssisəyə qəbula ən azı 2 (iki) iş günü qalmış bu barədə məlumat əlilliyi olan şəxsin əlaqə vasitələrinin birinə (telefon, elektron poçt və s.) göndərilir, eləcə də reabilitasiya müəssisəsinə əlilliyi olan şəxsin gəlmə tarixi və vaxtı barədə məlumat verilir.

4.8.4 Əlilliyi olan şəxsin reabilitasiya müəssisəsində qalma müddəti Fərdi Reabilitasiya Proqramına əsasən reabilitasiya tədbirlərinin növü, xarakteri və həcmindən asılı olaraq müəyyən olunur.

4.8.5 Reabilitasiya müəssisəsinə əlilliyi olan şəxslərin qəbul edilməsinə əks göstərişlər aşağıdakılardır:

4.8.6 xəstəliyin xüsusi stasionar müalicə tələb edən kəskinləşmə və yarımkəskin mərhələsi;

4.8.7 stasionarda müalicə tələb edən tez-tez kəskinləşməyə və dekompensasiyaya, residivə meyilli ruhi xəstəliklər;

4.8.8 fəal fazada bədxassəli şişlər;

4.8.9 müxtəlif mənşəli kaxeksiyalar;

4.8.10 geniş trofik və yataq yaraları;

4.8.11 irinli-nekrotik xəstəliklər;

4.8.12 yoluxucu və zöhrəvi xəstəliklər.

4.8.13 Bu Qaydanın 4.8.12-ci bəndində nəzərdə tutulmuş əks göstərişlər əlilliyi olan şəxsin reabilitasiya müəssisəsinə qəbulu zamanı aşkar edildikdə əlilliyi olan şəxs reabilitasiya müəssisəsinə qəbul edilmir.

4.8.14 Bu Qaydanın 4.8.12-ci bəndində nəzərdə tutulan əks göstərişlər əlilliyi olan şəxsin reabilitasiya müəssisəsində olduğu vaxt aşkar edildiyi hallarda əlilliyi olan şəxsə reabilitasiya xidmətlərinin göstərilməsi dayandırılır.

4.8.15 Bu Qaydanın 4.8.13-ci və 4.8.14-cü bəndlərində göstərilən hallarda əlilliyi olan şəxs reabilitasiya müəssisəsi tərəfindən müvafiq tibb müəssisəsinə göndərilir.

*Qeyd - Fərdi Reabilitasiya Proqramında müəyyənləşdirilmiş tədbirlər üzrə görülmüş işlərə dair məlumat reabilitasiya müəssisəsi tərəfindən rübdə bir dəfədən az olmayaraq elektron qaydada, texniki səbəblərə görə bu mümkün olmadıqda kağız daşıyıcıda Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin müvafiq tibbi-sosial ekspert komissiyasına təqdim edilir.*

Layihə

## 5 Yarımstasionar (günərzi) sosial xidmətlərin göstərilməsi

### 5.1 Sosial-psixoloji xidmətlər

**5.1.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

5.1.1.1 psixodiaqnostika və şəxsiyyətin öyrənilməsi

5.1.1.2 sosial-psixoloji məsləhətlərin verilməsi

**5.1.2 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

5.1.2.1 funksional bacarıqları bərpa etmək üçün aktiv terapiya, fizioterapiya, nitq və ünsiyyət terapiyası, gündəlik həyat fəaliyyətləri, idman terapiyası və digər tədbirlərin görülməsi

©AZSTAND –Bütün hüquqlar qorunur 

**5.1.3 Baxımsız və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşaqlar üçün**

5.1.3.1 uşağın psixososial vəziyyətinin ilkin qiymətləndirilməsi
5.1.3.2 uşağın depressiya vəziyyətindən çıxarılması, onun yaradıcılıq, intellektual və fiziki imkanlarına, eləcə də yaş xüsusiyyətlərinə uyğun olaraq psixoloji yardımın göstərilməsi

5.1.3.3 uşağın emosional vəziyyətinə və davranışına nəzarət edilməsi

**5.1.4 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

5.1.4.1 uşağın intellektual səviyyəsinin və psixososial vəziyyətinin ilkin qiymətləndirilməsi

5.1.4.2 uşağın çətin həyat şəraitində olması, uğursuz ailədən olması və ya valideynlərini itirməsi, valideyn himayəsindən məhrum olması səbəbindən yaranmış psixoloji sarsıntının aradan qaldırılması üçün aktiv həyata motivasiyanın yaradılması, psixoloji inkişafın yaş xüsusiyyətlərinə uyğunluğunun təmin edilməsi istiqamətlərində tədbirlərin həyata keçirilməsi
5.1.4.3 uğurlu nəticənin əldə edilməsi məqsədi ilə valideynlərlə və ya onları əvəz edən şəxslərlə psixoloji konsultasiya işinin aparılması

**5.1.5 İnsan alveri qurbanları üçün**

5.1.5.1 insan alveri qurbanlarının ehtiyaclarının, psixoloji və emosional vəziyyətinin ilkin qiymətləndirilməsi
5.1.5.2 insan alveri qurbanlarının zorakılıq, narkomaniya və digər amillərlə bağlı psixoloji zədələrini aradan qaldırmaq üçün psixososial dəstək və məsləhət yardımının göstərilməsi

**5.1.6 Məişət zorakılığından zərərçəkənlər üçün**

5.1.6.1 “qaynar xətt” vasitəsilə söhbət, fərdi məsləhətləşmələrin aparılması
5.1.6.2 zərərçəkmiş şəxsin psixoloji və emosional vəziyyətinin ilkin qiymətləndirilməsi
5.1.6.3 şəxsiyyətin dəstəklənməsi və məlumatlan-dırılması istiqamətlərində fərdi işin aparılması
5.1.6.4 qrup şəklində reabilitasiya: art-terapiya, müxtəlif treninqlər, ailə ilə görüş

**5.1.7 İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər üçün**

5.1.7.1 şəxsin psixoloji və emosional vəziyyətinin ilkin qiymətləndirilməsi
5.1.7.2 psixoloji zədələrin aradan qaldırılması məqsədi ilə psixososial dəstəyin göstərilməsi

**5.1.8 Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslər üçün**

5.1.8.1 şəxsin psixososial vəziyyətinin ilkin qiymətləndirilməsi
5.1.8.2 şəxsin psixoloji və emosional vəziyyətinə nəzarət edilməsi

Layihə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

5.1.8.3 şəxsin sosial adaptasiyasına nail olmaq məqsədi ilə sosial-psixoloji məsləhətlərin verilməsi

**5.2 Sosial-pedaqoji xidmətlər**

**5.2.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

5.2.1.1 mədəni-asudə vaxtın təşkili, kitablar, qəzetlər, jurnallarla, stolüstü və digər oyunlarla təmin edilməsi
5.2.1.2 maraqlar üzrə klubların yaradılması, poeziya gecələrinin keçirilməsi, əl işi sərgilərinin və yarmarkalarının təşkil edilməsi

**5.2.2 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

5.2.2.1 inkişaf pozuntuları olan uşaqların psixoloji-tibbi-pedaqoji müayinəsi, uşaqlara hərtərəfli qabaqlayıcı-inkişafedici yardımın göstərilməsi və onların valideynlərinə (qanuni nümayəndələrinə) psixoloji-pedaqoji dəstəyin verilməsi
5.2.2.2 uşaqlara qrup və fərdi məşğələlər, məsləhətlər (konsultasiya) formasında reabilitasiya xidmətlərinin göstərilməsi

**5.2.3 Baxımsız və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşaqlar üçün**

5.2.3.1 pedaqoji korreksiya üçün kompleks tədbirləri təşkil etmək məqsədi ilə uşağın normal və ya ictimai təhlükəli davranışını xarakterizə edən əlamətlərin öyrənilməsi, onun potensialının və meyillərinin, cəmiyyətdən təcrid olunmasının (əgər belə hal varsa) forma və dərəcəsinin müəyyən edilməsi
5.2.3.2 uşağın dünyagörüşünün genişləndirilməsinə, ünsiyyət qabiliyyətinin artırılmasına, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsinə yönəlmiş tədbirlərin təşkili, mədəni-kütləvi tədbirlərdə (ekskursiya, teatr, sərgi, konsert, yubileylər və digər) uşağın iştirakının təmin edilməsi
5.2.3.3 fiziki və əqli qabiliyyətlərinə uyğun olaraq uşaqların təhsil almasına və müxtəlif peşələrə yiyələnməsinə köməklik göstərilməsi
5.2.3.4 uşağın əmək, özünəqulluq, məişətdə və ictimai yerlərdə davranış, özünənəzarət və həyat fəaliyyətinin digər sahələrində bacarıqlarının artırılması

**5.2.4 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

5.2.4.1 uşağın mövcud potensialına və maraqlarına uyğun olaraq fiziki və əqli qabiliyyətinin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi
5.2.4.2 dərsdən sonrakı asudə vaxtının səmərəli təşkili
5.2.4.3 uşağın dünyagörüşünün genişləndirilməsinə, ünsiyyət qabiliyyətinin artırılmasına, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsinə yönəlmiş tədbirlərin təşkili, mədəni-kütləvi tədbirlərdə (ekskursiya, teatr, sərgi, konsert, yubileylər və digər) uşağın iştirakının təmin edilməsi
5.2.4.4 uşağı müxtəlif peşələr və onların xüsusiyyətləri haqqında məlumatlandır-maqla, onun peşə meyillərinin aşkar edilməsi
5.2.4.5 uşağın əmək, özünəqulluq, məişətdə və ictimai yerlərdə davranış, özünənəzarət, ünsiyyət və həyat fəaliyyətinin digər sahələrində bacarıqlarının artırılması

Layihə

©AZSTAND –Bütün hüquqlar qorunur 

**5.3 Tibbi-sosial xidmətlər**

**5.3.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

5.3.1.1 şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi

**5.3.2 Müəyyən yaşayış yeri olmayan şəxslər üçün**

5.3.2.1 tibbi müayinənin aparılması
5.3.2.2 ilkin tibbi yardımın göstərilməsi
5.3.2.3 şəxsi gigiyena və sanitariya qaydalarına əməl edilməsi şərtlərinin təmin edilməsi

**5.3.3 İctimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslər üçün**
5.3.3.1 xəstəliyin mərhələsindən asılı olaraq tibbi müayinələrin aparılması

**5.4 Sosial-hüquqi xidmətlər**

**5.4.1 Baxımsız və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşaqlar üçün**

5.4.1.1 uşağın hüquqlarının müdafiə edilməsi, ona qarşı hüquq pozuntusu törətmiş şəxslərin müəyyən olunması üçün peşəkar yardımın göstərilməsi
5.4.1.2 sənədlərin (doğum haqqında şəhadətnamə, şəxsiyyət vəsiqəsi, işlə təmin olunması üçün lazım olan sənədlər və s.) əldə edilməsinə köməklik göstərilməsi

**5.4.2 İnsan alveri qurbanları üçün**

5.4.2.1 insan alveri qurbanlarına maraq və hüquqlarının müdafiəsi üçün hüquqi məsləhətlərin verilməsi
5.4.2.2 sənədlərin bərpası, boşanma, alimentin alınması, uşaqlarla bağlı və digər sənədlərin hazırlanmasına köməklik göstərilməsi

**5.4.3 Məişət zorakılığından zərərçəkənlər üçün**

5.4.3.1 sənədlərin bərpası, boşanma, alimentin alınması, əmlak məsələləri, uşaqlarla bağlı və digər sənədlərin hazırlanmasında köməklik göstərilməsi

**5.4.4 Sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslər üçün**

5.4.4.1 sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslərə maraq və hüquqlarının müdafiəsi üçün hüquqi məsləhətlərin verilməsi
5.4.4.2 sənədlərin bərpası, əmlak məsələləri ilə bağlı və digər sənədlərin hazırlanmasında köməklik göstərilməsi

Layihə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**5.5 Sosial-iqtisadi xidmətlər**

**5.5.1 İnsan alveri qurbanları üçün**

5.5.1.1 insan alveri qurbanlarının peşə hazırlığının, yenidən hazır-lığının və məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi

**5.5.2 Məişət zorakılığından zərərçəkənlər üçün**

5.5.2.1 zərərçəkmiş şəxslərin peşə hazırlığı kurslarına istiqamətləndirilməsi və onların məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi

5.5.2.2 zərərçəkmiş şəxslərə postslə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi

**5.6 Sosial-məişət xidmətləri**

**5.6.1 Müəyyən yaşayış yeri olmayan şəxslər üçün**

5.6.1.1 diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi

5.6.1.2 müvafiq yataq mebeli, yataq dəsti, paltar və ayaqqabı ilə təmin edilməsi

5.6.1.3 yataq və geyim əşyalarının yuyulması, ütülənməsi

**5.6.2 Palliativ xidmətlər**

5.6.2.1 palliativ yardıma ehtiyacı olan xəstələrin ilkin müayinəsi

5.6.2.2 xəstəliyin ağırlıq dərəcəsindən və yaranmış fəsadlardan asılı olaraq, müvafiq mütəxəssislərin konsultasiyasının təşkil edilməsi

## 6 Stasionar sosial xidmət

**6.1 Sosial-psixoloji xidmətlər**

**6.1.1 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

6.1.1.1 uşaqların ehtiyaclarının, psixoloji və emosional vəziyyətinin ilkin qiymətlən-dirilməsi

6.1.1.2 yaradıcılıq, intellektual və fiziki imkanlarına, eləcə də yaş xüsusiyyətlərinə uyğun olaraq psixoloji yardımın göstərilməsi

**6.1.2 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

6.1.2.1 uşağın intellektual səviyyəsinin və psixososial vəziyyətinin ilkin qiymətləndirilməsi

6.1.2.2 yaradıcılıq, intellektual və fiziki imkan-larına, eləcə də yaş xüsusiyyətlərinə uyğun olaraq psixoloji yardımın göstərilməsi

**6.2 Sosial-pedaqoji xidmətlər**

**6.2.1 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

6.2.1.1 uşaqların gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarının, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarının inkişaf etdirilməsi

Layihə

©AZSTAND –Bütün hüquqlar qorunur 

6.2.1.2 uşaqların sağlamlıq və əqli imkanlarına uyğun olaraq, ilkin biliklərə yiyələnməsinə, təhsil almasına və ya peşəyə yiyələnməsinə köməklik göstərilməsi

**6.2.2 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

6.2.2.1 bu məqsədlə yaradılmış stasionar müəssisədə uşağın mövcud potensialına və maraqlarına uyğun olaraq fiziki və əqli qabiliyyətinin inkişafına, həmçinin ilkin biliklərə yiyələnməsinə, təhsil almasına köməklik göstərilməsi

6.2.2.1 bu məqsədlə yaradılmış stasionar müəssisədə dərsdən sonrakı asudə vaxtı-nın səmərəli təşkilinin təmin edilməsi

6.2.2.2 uşağın dünyagörüşünün genişləndirilməsinə, ünsiyyət qabiliyyətinin artırıl-masına, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsinə yönəlmiş tədbirlərin təşkili, mədəni-kütləvi tədbirlərdə (ekskursiya, teatr, sərgi, konsert, yubileylər və digər) uşağın iştirakının təmin edilməsi

6.2.2.3 uşağı müxtəlif peşələr və onların xüsusiyyətləri haqqında məlumatlan-dırmaqla, onun peşə meyillərinin aşkar edilməsi

6.2.2.4 uşağın əmək, özünəqulluq, məişətdə və ictimai yerlərdə davranış, özünənəzarət, ünsiyyət və həyat fəaliyyətinin digər sahələrində bacarıqlarının artırılması

**6.3 Tibbi-sosial xidmətlər**

**6.3.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

6.3.1.1 ilkin tibbi yardımın göstərilməsi və dərman preparatlarının verilməsi
6.3.1.2 sanitariya-gigiyena tələblərinin yerinə yetirilməsinin təmin edilməsi
6.3.1.3 tibbi-sosial ekspertizanın keçirilməsinin təşkil edilməsi

**6.3.2 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

6.3.2.1 tibbi-sosial xarakterli reabilitasiya tədbirlərinin yerinə yetirilməsi
6.3.2.2 ilkin tibbi yardımın göstərilməsi və dərman preparatlarının verilməsi

**6.3.3 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

6.3.3.1 ilkin tibbi yardımın göstərilməsi və dərman preparatlarının verilməsi

**6.4 Sosial-hüquqi xidmətlər**

**6.4.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

6.4.1.1 hüquqi-məsləhət yardımları

Layihə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Layihə

### 6.5 Sosial-iqtisadi xidmətlər

**6.5.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

6.5.1.1 peşə reabilitasiyasının həyata keçirilməsi

### 6.6 Sosial-məişət xidmətləri

**6.6.1 Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslər (ailələr) üçün**

6.6.1.1 diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi
6.6.1.2 yaşayış sahəsinin təmizlənməsi
6.6.1.3 mədəni-asudə vaxtın təşkilinə kömək göstərilməsi, kitablar, dövrü mətbuat, stolüstü və digər oyunlarla təmin edilməsi
6.6.1.4 yumşaq inventarlarla (paltar, ayaqqabı, yataq əşyaları və s.) təmin edilməsi

**6.6.2 Sağlamlıq imkanları məhdud uşaqlar üçün**

6.6.2.1 diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi
6.6.2.2 yaşayış sahəsinin təmizlənməsi
6.6.2.3 yumşaq inventarlarla (paltar, ayaqqabı, yataq əşyaları və s.) təmin edilməsi

**6.6.3 Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün**

6.6.3.1 diyetik yeməklər də daxil olmaqla, isti yeməklərlə təmin edilməsi
6.6.3.2 yaşayış sahəsinin təmizlənməsi
6.6.3.3 yumşaq inventarlarla (paltar, ayaqqabı, yataq əşyaları və s.) təmin edilməsi

## 7 Qida normaları

**7.1** Ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları Cədvəl 1-də əks olunmuşdur.

Cədvəl 1

| Ərzaq məhsulları (brutto, q) | Müharibə və əmək veteranları pansionatı | Ümumi tipli əlillər evləri (böyüklər) | Psixonevroloji internatlar (böyüklər) | Ağıldankəm uşaqlar üçün internat evləri | |
|---|---|---|---|---|---|
| | | | | 4-7 yaş | 8-18 yaş |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Buğda çörəyi I növ | 350 | 250 | 300 | 150 | 200 |
| Buğda çörəyi II növ | 200 | 250 | 450 | 150 | 200 |
| Buğda unu | 15 | 18 | 15 | 40 | 40 |
| Kartof unu | — | — | — | 5 | 5 |
| Yarmalar, makaron məmulatları, paxlalar | 80 | 85 | 70 | 55 | 80 |
| Kartof | 350 | 400 | 350 | 200 | 370 |
| Tərəvəz | 500 | 550 | 500 | 400 | 450 |
| Təzə meyvələr | 250 | 300 | 300 | 250 | 300 |
| Şirələr | 100 | 100 | 100 | 200 | 200 |
| Qurudulmuş meyvələr | 5 | 7 | 10 | 7 | 10 |
| Şəkər | 55 | 60 | 50 | 55 | 65 |
| Qənnadı məmulatı (peçenye və sair) | — | — | — | 10 | 25 |
| Ət, quş əti | 85 | 120 | 100 | 100 | 130 |
| Balıq | 80 | 50 | 50 | 50 | 60 |
| Süd | 200 | 200 | 200 | 350 | 300 |
| Kefir, qatıq | 150 | 200 | 200 | 200 | 200 |
| Kəsmik | 30 | 50 | 90 | 60 | 70 |
| Pendir | 10 | 20 | — | 20 | 20 |
| Xama | 12 | 15 | 15 | 15 | 20 |
| Kərə yağı | 30 | 40 | 35 | 30 | 35 |
| Marqarin | 20 | 20 | — | — | — |
| Bitki yağı | 20 | 20 | 30 | 15 | 20 |
| Yumurta (ədəd) | 0,5 | 1 | 1 | 1 | 1 |
| Tomat püresi və pastası | 2 | 2 | 2 | 1 | 1 |
| Çay | 1 | 2 | 2 | 1 | 2 |
| Qəhvə | 1 | 2 | — | 2 | 4 |
| Kakao | 2 | 3 | 3 | — | 2 |
| Duz | 6 | 10 | 8 | 6 | 9 |
| Ədviyyat | 3 | 3 | 3 | 1 | 2 |
| Maya | 1 | 1 | 1 | 2 | 2 |

## 8 Fərdi reabilitasiya

### 8.1 Tibbi reabilitasiya üzrə tədbirlər

Tibbi reabilitasiya tədbirləri Cədvəl 2-yə əsasən həyata keçirilir.

Cədvəl 2


©AZSTAND –Bütün hüquqlar qorunur

| Tibbi reabilitasiya tədbirlərinin adı | Tədbirlərin həyata keçirilmə müddəti | İcraçı | Yerinə yetirilmə və ya yetirilməmə barədə qeyd (səbəb göstərilməklə) |
|---|---|---|---|
| İxtisaslaşmış müalicə | | | |
| Bərpa müalicəsi | | | |
| Cərrahi müdaxilə | | | |
| Sanatoriya-kurort müalicəsi | | | |
| Tibbi reabilitasiya məqsədilə texniki vasitələrlə təchizat | | | |
| Digər | | | |

**8.2 Sosial bacarıqların inkişafı üzrə tədbirlər**

Sosial bacarıqların inkişafı üzrə tədbirlər Cədvəl 3-ə əsasən həyata keçirilir.

Cədvəl 3

| Sosial bacarıqların inkişafı üzrə tədbirlərin adı | Tədbirlərin həyata keçirilmə müddəti | İcraçı | Sosial bacarıqların inkişafı üzrə tədbirlərin adı |
|---|---|---|---|
| Mənzil şəraiti | | | |
| Müyəssərlik | | | |
| Erqoterapiya | | | |
| Mədəni-məişət | | | |
| Bədən tərbiyəsi və idman | | | |
| Digər | | | |

Layihə

**8.3 Fiziki reabilitasiya üzrə tədbirlər**

8.3.1 Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların adaptiv bədən tərbiyəsi, fiziki reabilitasiyası

8.3.1.1 Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar arasında bədən tərbiyəsi və idmanın inkişafı onların reabilitasiyasına xidmət edir.

8.3.1.2 Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların bədən tərbiyəsi və idmanla məşğul ola bilmələri üçün şərait yaradır, xüsusi avadanlıq və ləvazimatların alınmasında köməklik göstərir, onların bədən tərbiyəsi və idman sisteminə inteqrasiyasına dəstək olurlar.

8.3.1.3 Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların bədən tərbiyəsi və idman vasitəsilə reabilitasiya prosesinin təşkili və aparılması üçün xüsusi kadr hazırlığını, elmi-metodiki və tibbi təminatını, həkim nəzarətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

©AZSTAND –Bütün hüquqlar qorunur 

8.3.1.4 Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların reabilitasiyası və sosial bacarıqlarının inkişafı, adaptiv bədən tərbiyəsi və adaptiv idman metodlarından istifadə etməklə, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

8.3.1.5 Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün idmanın inkişafı idmanla məşğul olmanın üstünlüyü, yayılmasının kütləviliyi və müəssərliyi prinsiplərinə əsaslanır.

8.3.1.6 Müvafiq təhsil müəssisələrində əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün onların fərdi qabiliyyətləri və sağlamlıqlarının vəziyyəti nəzərə alınmaqla, adaptiv bədən tərbiyəsi və adaptiv idman vasitələrindən istifadə etməklə xüsusi dərslər təşkil olunur.

8.3.1.7 Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr, bədən tərbiyəsi-idman təşkilatları, o cümlədən əlilliyi olan şəxslərin bədən tərbiyəsi-idman birlikləri əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların iştirakı ilə bədən tərbiyəsi-idman və bədən tərbiyəsi-sağlamlıq tədbirlərinin keçirilməsini təşkil edir, uşaq-gənclər idman-adaptiv məktəbləri, uşaq-gənclər adaptiv fiziki hazırlıq klubları yaradırlar.

8.3.1.8 Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri, onların yerli şöbələri, idman klubları qanunvericiliyə uyğun olaraq yerləşdikləri dövlət mülkiyyətində olan binalardan və digər obyektlərdən pulsuz istifadə edirlər.

Layihə

## 9 Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin monitorinqi

**9.1** Müəssisələrdə gənclərə göstərilən xidmətlərin monitorinqi (daha sonra – monitorinq) aşağıdakı tələblərə uyğun olaraq keçirilir:

9.1.1 Monitorinq planlaşdırılmış və planlaşdırılmamış formalarda aparılır;

9.1.2 Planlaşdırılmış monitorinq müəssisənin tabe olduğu dövlət orqanının (qurumunun) müvafiq iş ili üçün təsdiq edilmiş iş planına əsasən 3 ildə bir dəfədən az olmamaqla həyata keçirilir.

9.1.3 Planlaşdırılmamış monitorinq sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərə dair tələblərin pozulması, müəssisələrdə göstərilən xidmətlərin keyfiyyəti ilə əlaqədar dövlət orqanları, hüquqi və fiziki şəxslər, bələdiyyələr və qeyri-hökumət təşkilatları tərəfindən şikayət və ya məlumatlar daxil olduqda, kütləvi informasiya vasitələrində və ya internet informasiya ehtiyatlarında bu barədə məlumat dərc edildikdə həyata keçirilir.

9.1.4 Monitorinqin keçirilməsi üçün müvafiq dövlət orqanının (qurumunun) rəhbərinin əmri ilə Monitorinq Komissiyası (daha sonra – Komissiya) yaradılır və monitorinqin aparılması istiqamətlərini, Komissiya üzvləri arasında iş bölgüsünü, monitorinq keçirilməsi müddətini müəyyən edən monitorinq planı təsdiq edilir.

9.1.5 Monitorinqin keçirilməsi aşağıdakı mərhələləri əhatə edir:

9.1.6 məlumatların toplanılması (sorğu anketləri vasitəsilə, əlavə məlumatlar əldə etmək məqsədi ilə yerində baxış və xidmət istifadəçiləri ilə rəy sorğuları keçirməklə);

9.1.7 toplanmış məlumatların təhlili (əlavə məlumatlara ehtiyac yarandıqda yerində baxış və xidmət istifadəçiləri ilə rəy sorğuları keçirməklə) və Komissiya tərəfindən qiymətləndirmənin aparılması;

9.1.8 qiymətləndirmə nəticələrinin sistemləşdirilməsi, nəticələrə dair hesabatın hazırlanması.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

9.1.9 Monitorinqin nəticələri bu standartın tələbləri nəzərə alınmaqla aşağıdakı kimi qiymətləndirilir:

9.1.10 Əla qiymətlə - xidmət göstərilərkən bu standartda müəyyən edilmiş tələblərin azı 90 faizi nəzərə alınıb;

9.1.11 Yaxşı qiymətlə - xidmət göstərilərkən bu standartda müəyyən edilmiş tələblərin azı 60 faizi nəzərə alınıb;

9.1.12 Kafi qiymətlə - xidmət göstərilərkən bu standartda müəyyən edilmiş tələblərin azı 30 faizi nəzərə alınıb;

9.1.13 Qeyri kafi - xidmət göstərilərkən bu standartda müəyyən edilmiş tələblər nəzərə alınmayıb.

*Qeydlər:*

*1. Monitorinqin keçirilməsininin nəticələrinə dair komissiya tərəfindən hesabat tərtib edilir və müvafiq dövlət orqanının (qurumunun) rəhbərinə təqdim edilir.*

*2. Qiymətləndirmənin nəticələrindən inzibati və məhkəmə qaydasında şikayət verilə bilər.*

Layihə

©AZSTAND –Bütün hüquqlar qorunur 

## Biblioqrafiya

[1] “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanunu

[2] “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının 2002-ci il 9 aprel tarixli 297-IIQ nömrəli Qanunu

Layihə



©AZSTAND –Bütün hüquqlar qorunur

UDC 338.465.4; MNT 87; ICS 03.020; 03.080

QRUP 3

**Əsas sözlər:** sosial xidmətlər, sosial müdafiə, tibbi-sosial, sosial-psixoloji, sosial-pedaqoji, sosial-hüquqi xidmətlər

Layihə

Layihə

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
publik hüquqi şəxs

**AZS XXX:2024**
**Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi. Ümumi tələblər**


©AZSTAND –Bütün hüquqlar qorunur